# Xatirələri yaşadanlar



Əhməd Cavad və oğlu Yılmaz Axundzadə,
Aşağıda: nəvə və oğul Anar Axundzadə



***Qonşuluqda yaşadığımızdan nəvəm, Vətən müharibəsi qazisi, torpaqlarımızın azğın işğalçı erməni hərbi birləşmələrindən azad olunmasında fəal iştirakına görə sinəsini dörd medal bəzəyən və bədənində dörd qəlpə gəzdirən Cavid Nuri tez-tez məni yoluxmağa gəlir. Bir dəfə əlində mobil telefon söhbətləşmədə yenicə tanış olduğu Bakı şəhərində yaşayan Anar Axundzadə ilə dostlaşdığını mənə söylədi. Bu soyad dərhal diqqətimi cəlb etdi. Soruşdum, Anar kimin oğludur? Söylədi ki, Yılmaz Axundzadənin. Şəxsi arxivimi axtarıb 1977-ci ildə Bakı şəhərində ikinci instansiya məhkəmə kollegiya sədri olarkən rayonun keçmiş birinci şəxsi və əlaltıları tərəfindən qərəzli, saxta, əsassız və hüquqi dildə desəm «alibi» zəminində başqa vasitələri də cəlb etməklə əvvəlcədən heç bir xəbərim olmadan əldə edilmiş yeganə sübut kimi ekspert rəyi əsasında üzərimə, mənə qarşı qaldırılmış cinayət işinə baxılırdı. Şəxsi arxivimi araşdırıb tam yəqin etdim ki, cinayət işinə baxan elə Anarın mərhum atası Yılmaz Axundzadədir.***

Böyük qardaşım, tanınmış musiqiçi və muğam bilicisi Ələfsər də məhkəmə baxışında müdafiəçi ilə birlikdə iştirak edirdi. Başqa işlərə baxılmaq üçün hərəsinə cəmi 5-6 dəqiqə ayrıldığı halda bu işə nədənsə yarım saatdan çox zaman ayrıldı. Kollegiya sədri hamımızı diqqətlə dinləyərək müxtəlif suallar verirdi və təkrar-təkrar bildirirdi ki, materialları diqqətlə oxuyub, bütün qaldırılan vəsatətlərə və ifadələrə, müxtəlif sənədlərə hərtərəfli nəzər salınıb. Ancaq hey hiss edirdim ki, sədr bir az həyəcanlı, duruxmuş halda görünürdü. Əllərini tez-tez gicgahına qoyaraq baxışları ilə mənə mərhəmətlə diqqət yetirməyi indiyədək gözlərim önündən çəkilmir. Yəqin, açığını desəm, günahsız yerə cəza verildiyindən mənə rəhmi gəlirdi. Hiss olunurdu ki, hər hansı dəqiq və tamam müsbət qərar vermək durumunda çətinlik var. İmkansızlığı və mümkünsüzlüyü hakimin özünü də sanki çıxılmaz vəziyyətdə saxlayırdı. Ona görə ki, bu cinayət işi yuxarının da dəstəkləyi sifarişlə başa gələn iş idi. Görünür, nahaq olmasın, ondan yuxarı vəzifəli şəxs kollegiya sədrinə əvvəlcədən mesajla ötürmüşdü ki, nə vasitə ilə olur-olsun birinci katibin mövqeyini qorumaq lazımdır. Ancaq vəkilin cinayət işinin təkmili istintaqa qaytarılması iddiasına və müsbət yanaşılmasına sədr başı ilə razılıq işarəsi və təsəllisinə gizlicə razılıq bildirirdi. Mən isə komsomolluğuma salıb, yerimdən icazəsiz qalxıb, dilləndim: - Rus əsərlərinin birində deyilir: A sudyi kto budut? Elə həmin rayonun prokurorluğunun müstəntiqi və hakimləri onlar olmayacaqmı? Xülasə, tanımadığım bu hakim yəqin ki, ədalətsiz hökmə görə hər hansı köməklik imkanlarının olmamasını əvvəldən, sanki duyaraq vicdan əzabı çəkirmiş... Nə edəsən? Bütün prokurorlar, müstəntiqlər, hakimlər, bir sözlə desək, vəzifəli hüquq-mühafizə məmurları o vaxtlar kütləvi surətdə Sov.İKP üzvü kimi Nizamnaməyə görə partiya orqanlarına tabe idilər. Raykom katibi hər hansını işdəki nöqsanlarına görə büroya çıxarıb cəza verərək rayondan hətta kənarlaşdıra bilirdi. Kasıb ailədə 8 oğul övladının ikincisi idim. Yeganə tək mən ali təhsil dalınca getdim. Gündəlik hətta güzəranımız və yeməyimiz üçün imkan yox idi. Atam müharibə əlili, anam isə evdar. Heç bir arxam, himayədarım olmadan pillə-pillə komsomol, partiya, sovet orqanlarında məsul vəzifələrə irəli çəkildim. Təqaüdə çıxmamışdan əvvəl isə icra hakimiyyəti başçısının müavini vəzifəsində çalışdım. Rayon partiya komitəsində işləyərkən 1975-77-ci illərdə bütün inkişaf perspektivlərimə sədd çəkən rayon rəhbərinin qərəzinə tuş gəldim. Günahsız olaraq o, məni məhkəmə məsuliyyətinə cəlb etdirməyə nail oldu. Birinci katibin hikkəsi və tapşırığı ilə iki il haqq-ədaləti bərpa etmək üçün yol pulu belə tapmadığımız halda olmazın müsibətlər çəkdim. Nahaqdan şərlənən bir gəncin acı taleyini bir neçə kitabımda təsvir etmişəm.

Həmin vaxtdan illər ötüb. İndi fikirləşirəm: Yılmaz Axundzadə yüzlərlə cinayət işinə baxıb, heç şübhə yoxdur ki, valideynlərinin və ailələrinin başına gətirilən ədalətsizlik üzündən, görünür, peşəsində də daim həmin səhnələri gözünün qarşısına gətirərək xəyala dalırdı. Bu mənada mən də onunla həmin təmasda bu qürurlu, peşəkar ədliyyə işçisi olan məşhur azadlıq carçısı Əhməd Cavadın oğlu hakim Yılmazın davranışında, səmimiyyətində və addımlarında dərindən hiss etdim ki, məhkəmə məsuliyyətinə haqsız cəlb olunan bir gəncin acı taleyinə necə də təəssüflənirdi. Dünyanı elə hamı lənətləyir. Etibarsızlıqda, bivəfalıqda, ədalətsizlikdə, fanilikdə və sair. Lakin çoxları unudur ki, biz bu dünyanın sakinləriyik. Ədaləti, qanunvericiliyi qoruyan, igidliyi və qəhrəmanlığı, dəyanəti və halallığı gözləyən, yaxud əksinə, qanunları pozan, tənbəllik və qorxaqlıq göstərən, xəyanətkarlığa və haramxorluğa yol verən elə bizlər özümüz deyilikmi? Ziyankarlıq, natəmizlik, ikili standartla dünyaya ağalıq etmək hikkəsi, hiyləgər manipulyasiya ilə soyqırımlar və müharibələr törədənlər, ikiüzlü dövlətlər və ünsürlər görəsən niyə dünyanın ünvanına ləkəli tarixlər yazırlar? Niyə haliyədə ekologiyanın böhran vəziyyətinə düşməsi, münaqişələr və qırğınlar, aclıq-susuzluq, ərzaq böhranı və enerji qıtlığı, bəzi sirri və patologiyası bilinməyən əlacsız xəstəlikləri törədən bəşər övladı kimi ən yüksək şüurlu canlı olan insanlar azmı günahkardır? Bəlaların çoxu bəd əməlli bəşər övladlarının ayağına yazılmaqla bələlərin əməllərinə ədalətli hökm vermək hamının borcudur.

Sevimli şairimiz Bəxtiyar Vahabzadənin (yeri gəlmişkən, vəzifədə olarkən 1995-ci ilin sentyabrında Xalq şairimizin yubiley məclisini də Masallıda mən aparmışam və bu şəxsiyyətlə xeyli təmaslarda görüşmüşük.) poeziyamızın sərkərdələrindən olmaqla ədəbi nümunəsindən bir bəndi yazıma gətirsəm, yerinə düşər:

*Xeyir həqiqətdən, şər şərdən doğar,*
*Haqdan yaranıbdır haqdan dünyamız.*
*Yaxşı ki, dünyada yaxşılar da var,*
*Yoxsa dağılardı çoxdan dünyamız.*

Bir az əvvələ qayıdaraq, bildirim ki, yaxşıların məsləhətləri hesabına işimi keçmiş ittifaqın ən yüksək rəhbərliyi tərəfindən apartdırdım, paytaxt Moskvada hüquqi qiymət verildi: bəraət aldım, dövlət, işləmədiyim dövr üçün pul kompensasiyası da ödədi, partiyaya bərpa edildim.

İndi isə iki tanınmış ailənin yaşlı nəsil nümayəndəsi və bu yazı müəllifinin və nəvəsinin xatirələri əsasında hekayətimi davam etdirim.

**Haşiyə:** Tariximizə nəzər salsaq, görərik ki, dövlət müstəqilliyimiz uğrunda Xalq Cümhuriyyəti quruculuğu dövründə azadlıq və mübarizə eşqi ilə qəlbləri döyünən müstəqil dövlət hüquqlarımızın mücahidlərindən, ali və yaradıcı şəxsiyyətlərimizdən müxtəlif bəhanələrlə, sui-qəsdlərlə, saxta ittihamlarla repressiyaya, təqiblərə məruz qalmış qurbanlarını xatırlasaq, yüzlərlə günahsız tanınmış şəxsiyyətlərimizin bir çox hallarda istintaqsız, sübutsuz o vaxtkı "troykalar"ın ədalətsiz qərarları ilə nə qədər insan kütləvi təqiblərə məruz qalıb?! Tanınmış belə şəxsiyyətlərdən biri də 1919-cu ildə dövlətimizin himni - "Azərbaycan" marşının sözlərinin müəllifi Əhməd Cavaddır. O, 1892-ci il mayın 5-də Şəmkir rayonunun Seyfəli kəndində dünyaya göz açıb. İlk təhsilini mollaxanada alıb. Ailə Gəncəyə köçdükdən sonra buradakı Şah Abbas məscidində ruhani seminariyasında təhsilini davam etdirib. Hüseyn Cavid, Abdulla Şaiq və digər mütərəqqi ruhlu, vətənini, xalqını hədsiz sevən, bu yolda canlarından keçməyə hazır olanlarla birlikdə bu türk oğlu yüksək amallar uğrunda xalqımızın gələcəyi naminə fəaliyyətinin məzmununu da həmin ziyalılarla birgə formalaşdırır. O, rus dilini mükəmməl bilirdi. Seminariyanı bitirdikdən sonra Əhməd Cavad əmək fəaliyyətinə başlayır. Həm də lirik şeirlər yazmaqla ədəbi fəaliyyətini davam etdirir. Az müddətdən sonra "Qoşma" şeirlər toplusu çapdan çıxıq. 1914-cü ildə Birinci Dünya müharibəsində və sonrakı dövrdə çətin vəziyyət zamanı bir qrup könüllü əsgərin cərgəsində Əhməd Cavad da həmfikirləri ilə türk qardaşlarımıza köməyə gedir. Bir müddətdən sonra Qars və Ərzurum rus və erməni dəstələri tərəfindən qırğına məruz qalır. Daha sonralar şair «Nə gördümsə» şeirində göstərir:



Soldan Ələşrəf Niftiyev və nəvəsi Cavid Nuri

*Ərməğanım yaslı nəğmə,*
*Bir quş oldum, çıxdım yola.*
*Getdim, gördüm dost elində*
*Nə bir səs var, nə bir laylay...*

"Qara dəniz" şeiri də bu olaylara həsr olunub. Artıq 1918-ci ildə türk əsgərləri Bakının Yasamal dağındakı səngərlərdə yerli döyüşçülərlə birgə vuruşdu. Gözlərim önünə millət təəssübkeşi, pak insan və xeyriyyəçi, jurnalist və yazarın, həm də onun ailə üzvlərinin başına gətirilən təqib və iztirabları müxtəlif mənbələrdən yaddaşımda yenidən canlandırıram. O, 1920-ci ildə Qusarın Xuluq kəndinə köçərək müəllimlik etməsi, bir neçə ali məktəbə daxil olması, qəzet və jurnallara əməkdaşlıq etməsi, xarici ədiblərin əsərlərindən rus dilinə tərcümə etməsi işində məhsuldar əmək sərf edir. Tükənməz enerjiyə malik haqq-ədalət çarçısı, müstəqil Azərbaycanımızın dövlət quruculuğu banilərindən biri kimi bu şəxsiyyətin məğrurluğu, dönməzliyi, möhkəm iradə ilə mübarizə yolunda fərqləndiyini sübut etmişdir. 1937-ci ildə əleyhdarları, hətta ədəbi yaradıcılığındakı bəzi ciddi çağırışlarına siyasi don geydirərək ona qarşı fasiləsiz təqibləri davam etdirirlər. Əhməd Cavadın Yazıçılar İttifaqı üzvlüyündən çıxarılmasına, bir neçə gündən sonra xalq düşməni adlandırılmaqla həbs edilməsinə, əmlakının müsadirə olunmasına nail olurlar. Hətta onun həyat yoldaşı Şükriyyə xanımın zinət əşyalarını və evində qiymətli nə varsa müsadirə edirlər. Elə həmin ilin oktyabın 13-də şair güllələnir. Uşaqları ilə birlikdə ailə üzvləri sürgün qorxusu altında işgəncələrə məruz qalaraq bir neçəsi həbs edilir. Yeddi ildən sonra Şükriyyə xanım həbsdən azad olunsa da, ona Bakıda yaşamaq yasaq edilir. Yalnız 1955-ci ilin sonunda əzmkar bu Azərbaycan qadını bəraət alır.

Bu il Şərqdə qurulan Azərbaycan Müstəqil Demokratik Cümhuriyyətinin banilərindən Məhəmməd Əmin Rəsulzadənin 140 illiyi qeyd olunur. Bu görkəmli şəxsiyyət Əhməd Cavad haqqında yazırdı: «O, şeirləri ilə türk xalqlarının, doğma Azərbaycanın apardığı İstiqlal mübarizəsinə bir ordudan çox xidmət göstərdi. Onun qələmi minlərlə süngüyə bərabər idi». Beləliklə, dövrünün qorxmaz və əzabkeş şəxsiyyətlərindən olan Əhməd Cavadın xatirəsi müasir Azərbaycanımızda və türk dünyasında da böyük hörmətlə anılır. Onun haqq işinə sədaqətini nümayiş etdirən və sədaqətlə qoruyan oğlu Yılmaz Axundzadə Ali Sovetin keçmiş deputatı kimi bir dəfə AXC-Musavat rəhbərliyinə üzünü tutaraq: - Siz müstəqilliyimiz uğrunda canlarını fəda verənlərin ruhuna hörmətlə yanaşmırsınız deyərək, deputat mandatından imtina etdiyini nümayişkarcasına iclasların birində bildirmişdi.

**Bir müddət əvvəl 2020-ci ilin payızında könüllü olaraq xüsusi təyinatlı dəstələrin tərkibində Şuşaya qədər döyüş yolunu davam etdirmiş və 44 günlük müharibədə Qələbəyə lap az qalmış düşmən qəlpəsindən yaralanmış nəvəm Cavidin xahişi ilə Anara zəng vurdum.** Babasının və atasının ruhunu şad etmək üçün vaxtı ilə Bakı şəhərində baş tutmuş məhkəmədə cinayət işimə baxılması ilə əlaqədar xatirələrimi və oxuduqlarımı danışdım. Çox məmnun olduğunu bildirdi. Mən isə öz tərəfimdən bu iki gəncin dostluğunda həmin vaxtlar babasının və sovet dövrü zamanı təqib olunmuş şəxs kimi özümün necə ədalətsizliyə düçar olduğumu da danışmağı unutmadım. Burada nəsillərin estafeti məramı ilə Anara və nəvəmə vəd verdim ki, siz də xatirələriniz barədə bir-iki kəlmə mənə söyləyin və yazıçı kimi qələmə alaraq Əhməd Cavadın doğum günü ərəfəsində sizdən eşitdiklərimi də bu yazıma əlavə şəklində mətbuat səhifəsində dərc etdirəcəyəm. Beləliklə, Anar Axundzadə söhbətimizə qoşulub aşağıdakı fikirləri söylədi:

- Cavidlə tanışlığımızdan sizin ona danışdığınız xatirələrdən coşqun duyğusallıq hissləri məni bürüdü. Babam və atam barədə telefonla ağsaqqal şəxsiyyət və tanınmış yazar Ələşrəf babanın telefon bağlantısında söhbətlərindən qürur duydum. Onun danışdığı epizodlardan atamın şəxsi arxivində yer alanları da var. Ələşrəf baba kimi alicənab insan, şərəfli ömür yolu keçmiş şəxsiyyətlə tanış olmağıma şadam. İnşallah, Masallı torpağında görüşəndə yaxından bir daha bu təmaslarımızı və isti münasibətlərimizi, habelə yaşlı nəslin bizə ərmağan etdiyi dövlətçiliyimizə sədaqət, vətənimizə layiqincə xidmət etmək məsələlərinə də lazımınca yer ayırarıq.

Cavid isə dilləndi:

- Babam məktəbdə mənə dərs deməsə də, həyat müəllimim kimi vətənə sevgi, işə sədaqət, yüksək peşəkarlıq, milli-mənəvi dəyərlərimizə hörmət, böyük, kiçik münasibətləri, dünyagörüşün formalaşması yolları və s. vacib məsələlər barədə vaxtaşırı söhbətlərimizdə belə mövzulara geniş diqqət verir. - Zəngin ədəbi nümunələrlə tanışlıq, kitab və qiraət insanın gündəlik tələbatı olmalıdır, - deyə o, həmişə məni savadlı və bilikli olmağa səsləyib. Torpaqlarımızın müdafiəsi uğrunda cəbhəyə könüllü yollanmağım babamın müdrik məsləhətləri və mənə bəxş etdiyi həyati bilgilərdən qaynaqlanıb. Yaralanıb müharibədən qayıtdıqdan sonra təəssüratlarımı, əfsanəvi əməliyyat epizodları, döyüş qardaşlarımın igidliyi barədə xatirələrimdən ibarət yazdığım qeydlər babamın himayəsi və sponsorluğu ilə ayrıca kitab şəklində nəşr olundu.

Dönə-dönə deyirəm ki, babaların, ataların, dövlətçiliyimizin, milli ordumuzun, tanınmış tarixi şəxsiyyətlərin keçdiyi şanlı yol hər bir vətən övladı üçün müqəddəs amal sayılmalıdır.

**Ələşrəf Niftiyev,**
**Masallı şəhəri, III dərəcəli "Vətənə xidmətə görə" ordenli, dövlət qulluğu veteranı, bir neçə media mükafatçısı, «Heydər Əliyevin 100 illiyi» (1923-2023) medalçısı, AYB və AJB-nin üzvü.**